# KİTABXANALARDA MƏDƏNİ-KÜTLƏVİ TƏDBİRLƏRİN TƏŞKİLİ

## (Firidunbəy Köçərli adına Respublika Uşaq Kitabxanasının təcrübəsi əsasında)

Nəzrin Atabəyli,
AMEA Məhəmməd Füzuli adına
Əlyazmalar İnstitutunun magistrantı
E-mail: *nezrin.atabeyli@gmail.com*

Texnologiyalar əsri sayılan XXI əsr elmin bütün sahələrində olduğu kimi, kitabxanaların da qarşısında yeni öhdəliklər, tələblər qoyur. Kitabxana işinin təşkilatçıları da zamanla ayaqlaşmalıdırlar: tələbatı günbəgün artan çoxşaxəli oxucu kütləsinin yeni məlumatlar alması məqsədilə dünya informasiya bazasına daxil olmaları, ümumbəşəri intellektual potensialdan operativ istifadə üçün geniş imkanlar açılmalıdır.

Son illər ölkəmizdə kitabxana işinin yaxşılaşdırılması haqqında qəbul edilən qərarların icrası bu sahənin inkişafında ciddi dönüş yaradıb. Bu sırada "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın həyata keçirilməsini xüsusi qeyd etmək lazımdır. Ötən dövrdə proqramda nəzərdə tutulan tədbirlərin gerçəkləşməsi nəticəsində yerlərdə bir çox kitabxanaların vəziyyəti, maddi-texniki təchizatı yaxşılaşıb, kitabxanalara maraq artıb, tələbatçıların informasiya təminatı xeyli yaxşılaşmışdır. İstifadəçilərin kitabxanaya cəlb edilməsi üçün ilk növbədə orada yaxşı kitablar, elektron resurslar, maddi-texniki təchizat olmalıdır (1).

Biz unutmamalıyıq ki, kitabxana işi təkcə oxucuya kitab təqdim etməklə məhdudlaşmır. Kitabxanalara yeni oxucuların cəlb olunması, onlara fondun tanıtdırılması, kitabxanaların hansı milli və beynəlxalq qurumlarla əməkdaşlıq etdiyi haqda məlumatın verilməsi və digər bu kimi addımlar da intensiv fəaliyyətin bariz göstəricisidir.

Sözsüz ki, bu kimi nailiyyətləri işıqlandırmağın da bir neçə yolu var və bunlardan ən əsası kitabxanalarda mədəni-kütləvi tədbirlərin təşkilidir.

Kütləvi tədbirlər kitabın, elektron nəşrlərin və digər çap məhsullarının geniş oxucu kütləsi içərisində təbliğində xüsusi rol oynayır. İstənilən kütləvi tədbir oxucuda müəyyən bir mövzu haqqında konkret təsəvvür yaradır, onu həmin mövzu ətrafında gedən müzakirələrin yaxından izləyicisinə çevirir, bununla bağlı mövcud ədəbiyyatla tanış edir.

Kitabxanadakı kütləvi işin mərkəzində daim kitab durur. Kitabın təbliği vasitəsiz və vasitəli şəkildə həyata keçirilir.

Vasitəsiz təbliğin ən öndəgedən nümunələrinə kitab müzakirələri, kitab sərgiləri və s. aiddir. Məlumdur ki, bu kimi tədbirlərlə hansısa bir konkret kitab haqqında ancaq ilkin məlumat almaq, yaxud konkret mövzuda yeni ədəbiyyatla tanışlıq mümkündür.

Vasitəli məlumat isə işin səmərəliləşməsi məqsədilə təşkil edilir. Məsələn, kitabxanaçılar və kitabxana şurası oxucu konfranslarında kitabxananın işi haqqında hesabat verir, yaxud mütaliə mədəniyyətinə həsr olunmuş tədbir keçirərək oxucularla kitabla davranış qaydaları haqqında maarifləndirici iş aparırlar.

Kitabxanada həyata keçirilən fərdi və kütləvi işlər 2 əsas funksiya daşıyır:

1. Məlumat funksiyası – oxuculara müəyyən biliklərin verilməsi;
2. Tərbiyəvi funksiya – oxucularda yaradıcılıq vərdişləri, təşəbbüskarlıq, təşkilatçılıq, kollektiv fəaliyyətdə iştiraka maraq yaradılması və bu cəhətlərin inkişafı.

Hər bir kitabxana tərəfindən kütləvi tədbirlər əvvəlcədən planlaşdırılmış şəkildə həyata keçirilməlidir. Kitabxana rəhbərliyi ilk növbədə il ərzində həyata keçiriləcək kütləvi tədbirlərin adını və vaxtını illik iş planında əks etdirməlidir.

Plan əlamətdar günlərin qeyd edilməsi, təqvimdə göstərilən yubileylərin keçirilməsi, müxtəlif mövzularda ikigünlük seminar tədbirlərinin təşkili əsasında qurulmalıdır.

Məlumdur ki, kütləvi tədbirlər şifahi, əyani və yazılı (mətbuat, çap) formalarda həyata keçirilir (2).

Azərbaycan Respublikası mədəniyyət və turizm naziri Əbülfəs Qarayev uşaq kitabxanalarında uşaqlara kitabxana xidmətinin yaxşılaşdırılması, uşaq kitabxanalarına diqqətin artırılması və ölkənin uşaqlarla bağlı demoqrafik perspektivlərinin müəyyənləşdirilməsi məqsədilə 2016-cı ilin Azərbaycan Respublikasında "Uşaq ədəbiyyatı ili" elan edilməsi ilə bağlı sərəncam vermişdir. Məhz bu səbəbdən də, nümunə olaraq Firidunbəy Köçərli adına Respublika Uşaq Kitabxanasının 2016-cı ilə dair tədbirlər planını maarifləndirmə işinin təşkili baxımından nəzərdən keçirmək yerinə düşərdi (3).



Hər şeydən əvvəl kitabxananın tarixinə bir nəzər salaq. F.Köçərli adına Respublika Uşaq Kitabxanası 1965-ci il yanvarın 1-də Azərbaycan Respublikası Nazirlər Sovetinin qərarı ilə M.Qorki adına kitabxananın fondu əsasında yaradılıb. 12 sentyabr 1967-ci ildən Azərbaycan Respublikası Mərkəzi Komitəsinin 25 saylı sərəncamına əsasən uşaq ədəbiyyatının inkişafında mühüm xidmətləri olan, Azərbaycan dilinin saflığı uğrunda daim mübarizə aparmış Azərbaycan ədəbiyyatşünası, pedaqoq, maarifpərvər, uşaq folklor antologiyasının banisi Firidunbəy Köçərlinin adını daşıyır. Hazırda kitabxananın 9 şöbəsi, 5 bölməsi, 2 oxu zalı var. 3 filialı isə Bakının müxtəlif rayonlarında fəaliyyət göstərir (Yasamal, Binəqədi və Yeni Günəşli).



Hər il kitabxanada 2 aprel Beynəlxalq Uşaq kitabı günü ilə əlaqədar Milli Uşaq Kitabı Sərgisi təşkil olunur.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 2016-cı il oktyabrın 1-nə olan rəqəm göstəriciləri belədir: kitab fondu 265000; dövri mətbuat fondu 120350; elektron resurslar 3790; dövri mətbuat fondu 65280; qəzet və jurnal məqalələri fondu 120350; elektron resurslar 3790; elektron kitablar 12700; elektron kataloqun həcmi 261600; elektron kartoteka 96900 (3).

Yuxarıda adı qeyd olunan kitabxananın tədbirlər planına yaxından diqqət yetirdikdə kitabxanada onlarla mövzuda maarifləndirici tədbirlərin təşkilinə önəm verildiyini görürük.

Tədbirlərin əksər hissəsi kitabxananın daxilində baş tutur, lakin bununla yanaşı, təşkilatçılar lazım gələndə fərqli məkanlara da üz tuturlar. Məsələn, yay mövsümü ilə əlaqədar oxu proqramına nəzər salaq: "Kitab, günəş, uşaqlar" adlı layihənin iyul-avqust aylarında Çingiz Mustafayev adına düşərgədə keçirilməsi nəzərdə tutulub. Burada keçirilən "Oxuyaq, oynayaq" kimi əyləncəli tədbirin məqsədi əsasən yay aylarında və uşaqların tətil günlərində onları küçədən yayındırmaqdır. Burada uşaqlar təkcə kitab oxumaq deyil, əyləncəli krossvord, şarada, rebus həll etməklə fərqlənir, mükafatlandırılırlar. Tədbir bir ay davam edir və ayın sonunda ən çox çətin krossvordlar, rebus və s. həll edənlər kitabxananın fəxri oxucu titulu ilə mükafatlanır.

Yuxarıda da qeyd etdiyimiz kimi, kitabxanada keçirilən tədbirlərin mövzuları çox rəngarəngdir. Kitabxanada hərbi vətənpərvərlik, əmək tərbiyəsi və məktəb proqramına kömək, ölkəşünaslıq, estetik tərbiyə, ekoloji tərbiyə, ideya və siyasi tərbiyə, hüquq tərbiyəsi, Azərbaycan uşaq ədəbiyyatının təbliği, əlillərlə iş, əxlaq, kimi müxtəlif, bir-birindən məzmunca çox fərqlənən mövzularda tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Adları çəkilən mövzular ətrafında hazırlanan tədbirlər bütün əlamətdar günləri əhatə edir. Buraya milli, beynəlxalq və dini bayramlar (məsələn, 8 mart – Beynəlxalq Qadınlar Günü münasibətilə bədii kompozisiya, yazıçı M.Rzaquluzadənin "Anaların bayramı" hekayəsinin ucadan oxusu; Novruz bayramı münasibətilə "Yurdumuza bahar gəlir" adlı el şənliyi; Azərbaycan əlifbası və Azərbaycan dili günü münasibəti ilə icmal; Ramazan bayramı münasibətilə "11 ayın sultanı" adlı sərgi, söhbət; Azərbaycanın Dövlət Müstəqilliyi günü münasibəti ilə "Müstəqilliyimiz əbədidir" adlı kitab sərgisi, icmal; Milli Dirçəliş Günü münasibətilə sərgi; Dünya Azərbaycanlılarının Həmrəylik günü münasibəti ilə görüş və s.); Azərbaycan və dünya ədəbiyyatında, incəsənətində, tarixində əvəzsiz rolu olmuş insanların doğum və vəfat ildönümlərinə həsr olunan müxtəlif tədbirlər (məsələn, ulu öndər Heydər Əliyevin anadan olmasının 93-cü ildönümü münasibətilə "Heydər Əliyev və Azərbaycan gəncliyi" adlı tədbir; Amerika yazıçısı Cek Londonun anadan olmasının 140 illik yubileyi ilə bağlı sərgi, onun "Martin İden", "Həyat eşqi" kitablarının icmalı; alman yazıçısı, bəstəkar, rəssam Ernest Teofor Hofmanın anadan olmasının 240 illiyi münasibətilə söhbət, "Şelkunçik və siçanlar padşahı" kitabı əsasında səhnəcik, eləcə də eyniadlı tamaşaya Gənc Tamaşaçılar Teatrında baxış və müzakirə; özbək şairi Əlişir Nəvainin anadan olmasının 575 illiyi münasibətilə "Yeddi səyyarə" kitabının icmalı; alman filoloqu, folklorçu, nağılçı Vilhelm Qrimin 230 illiyi ilə əlaqədar onun qələmə aldığı "Ağca", "Bremen musiqiçiləri", "Qırmızı papaq", "Kral-qurbağa", "Rapunzel", "On iki qardaş", "Balıqçı və arvadı haqqında", "Küllücə", "Ağıllı Elza" nağılları əsasında yaradılmış səhnəciklər; Xalq şairi Səməd Vurğunun anadan olmasının 110 illiyi münasibətilə sərgi, şeir müsabiqəsi (S.Vurğunun ev-muzeyində), Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin "Meyvələrin söhbəti" əsərinin müzakirəsi; "Nəsimi" filminə baxış-müzakirə (xatırladaq ki, YUNESKO 2016-cı ili İmadəddin Nəsimi və Molla Pənah Vaqif ili elan etmişdir); uşaq yazıçısı Abdulla Şaiq Talıbzadənin anadan olmasının 135 illiyinə həsr olunan "Abdulla Şaiq. Biblioqrafiya" kitabının və "Abdulla Şaiq" elektron məlumat bazasının təqdimat mərasimi, A.Şaiq adına Kukla Teatrının əməkdaşları ilə görüş, "Tıq-Tıq xanım" tamaşasına baxış və s.) kimi mühüm tədbirlər daxildir. Bayram günləri ilə yanaşı, Azərbaycan tarixində şəhidlərimizin qanı ilə yazılmış günlər də unudulmur, hər zaman yad edilir. Məsələn, 20 Yanvar faciəsinin 26-cı ildönümü ilə əlaqədar kompozisiya; Xocalı faciəsinin 24-cü ildönümü ilə əlaqədar "Xocalıya ədalət" adlı ədəbi-bədii gecə; alman faşizmi üzərində qələbənin 71 illiyi ilə əlaqədar sərgi; H.Abbaszadənin "Salam, General" kitabının icmalı bunlara nümunə ola bilər.

Kitabxanada əlillərlə iş dedikdə nəzərdə tutulan tədbirlər isə bunlardır:

Leykoz xəstəsi olan uşaqlarla iş; evdə məktəb təhsili alan və kitabxanaya gələ bilməyən uşaqlara kitabxana xidməti; onkoloji dispanserlərdə müalicə alan uşaqlar üçün "Ürəyimi uşaqlara



1. 2 aprel – Beynəlxalq Uşaq Kitabı Günü münasibətilə VIII Milli Uşaq Kitabı sərgisinin keçirilməsi.

2. İBBY.az bölməsinin yaradılması.

3. İBBY.az bölməsinə daxil olan bütün uşaq yazıçı, rəssam və tərcüməçilərin kataloqunun yaradılması.

4. İBBY-yə üzv dövlətlərin beynəlxalq sərgi və seminarlarında iştirak etmək.

5. İBBY təşkilatı ilə sıx əməkdaşlıq.

Biz burada Firidunbəy Köçərli adına Respublika Uşaq Kitabxanasının 2016-cı il üçün nəzərdə tutulmuş tədbirlər planının çox az hissəsini təhlil edə bildik.

Yuxarıda da qeyd etdiyimiz kimi, adıçəkilən kitabxanada kitabın təbliği vasitəsiz və vasitəli şəkildə həyata keçirilir, bütün əlamətdar günlər qeyd olunur, uşaq və gənclərin aktiv və passiv istirahəti üçün hər cür addımlar atılır, onların dünyagörüşünün artırılmasına, yerli və dünya ədəbiyyatı dahilərini tanımalarına xüsusi diqqət ayrılır. Firidunbəy Köçərli adına Respublika Uşaq Kitabxanası bu vəzifələrin öhdəsindən layiqincə gəlir və bundan sonra da kitabxana ictimaiyyəti üçün əhəmiyyətli vəsaitlərin nəşrində, Mərkəzi Kitabxana Sistemlərinin uşaq şöbələri üçün metodik təminat sisteminin güclənməsində və kitabxanaçı kadrların səriştəsinin artırılmasında bütün imkanlardan müvəffəqiyyətlə istifadə edəcəkdir.

verirəm" adı altında keçirilən aksiya; uşaq evləri, internat məktəbləri ilə bir yerdə Novruz tədbirləri təşkil etmək; Firidunbəy Köçərli adına Respublika Uşaq Kitabxanasında gözdən zəif və qüsurlu uşaqlar üçün açılmış "Dil və İnformasiya Mərkəzi"ndə treninqlərin aparılması; lal-kar uşaqlar üçün xüsusi məktəbdə "Mənim öz dünyam var" adlı rəsm müsabiqəsi (20 noyabr – Uşaq Hüquqları Konvensiyası Günü ilə əlaqədar) və s.

Eləcə də kitabxananın illik planına Beynəlxalq Uşaq Kitabı Şurası – İBBY (The International Board on Books for Young People) ilə əməkdaşlıq da daxildir. Bu əməkdaşlıq çərçivəsində həyata keçiriləcək tədbirlər isə aşağıdakılardır:

**Ədəbiyyat:**

1. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"//Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodiki və təcrübi jurnal. 2008. №2. s.6-29.
2. İsmayılov Xəlil İsmayıl oğlu. "Kitabxana işinin təşkili və idarə edilməsi". Bakı, 2009
3. www.clb.az. (Firidunbəy Köçərli adına Respublika Uşaq Kitabxanasının rəsmi internet səhifəsi).

**Резюме**

Данная статья посвящена изучению проведения культурно-массовых мероприятий в библиотеках с точки зрения культурологии. Основой для данного исследования послужила деятельность Азербайджанской Государственной Детской Библиотеки имени Ф.Кочарли.

**Ключевые слова:** библиотека, мероприятия, литература, культура, Ф.Кочарли.

**Summary**

This article dedicated to cultural mass events whichwere observed from the perspective of culturology. The basis of this research is practice of the Azerbaijan State Children's Library named after F.Kocharli.

**Key words:** library, event, literature, culture, F.Kocharly.